

ABŞ prezidenti Barak Obama Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

APA-nın məlumatına görə, B. Obama təbrik məktubunda prezident İlham Əliyevi və Azərbaycan xalqını “Respublika Günü” münasibəti ilə təbrik edib: “1918-ci il mayın 28-də müsəlman dünyasında ilk dünyəvi və demokratik dövlətin, Azərbaycan Respublikasının müstəqilliyinin elan olunması münasibəti ilə əlamətdar bayramı qeyd edən Azərbaycan xalqına biz də qoşuluruq. Ölkələrimiz arasında təhlükəsizlik sahəsində güclü əməkdaşlıq mövcuddur və biz Azərbaycanın NATO-nun Əfqanıstandakı missiyasında iştirakını yüksək qiymətləndiririk”.

B. Obama məktubunda Azərbaycanda insan hüquqları sahəsindəki vəziyyətə də toxunub: “Biz Azərbaycanın insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsində liderlik rolunu öz üzərinə götürməyə çağırırıq. Biz həmçinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində irəliləyiş əldə etmək üçün Azərbaycana kömək etməyə hazırıq. Bu hamımızın arzuladığı daha güclü sabiq və müstəqil Azərbaycana əhəmiyyətli töhfə verəcək”.